# AVROPADA MƏSKUNLAŞAN TÜRKLƏRİN XXI ƏSRDƏ TÜRK DÜNYASININ BEYNƏLXALQ ALƏMLƏ İQTİSADİ, SİYASİ VƏ MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINA TƏSİRİ (ALMANİYA NÜMUNƏSİ)

***Abdulkadir İNALTAKİN***
*(Almaniya Muğam mərkəzi, Almaniya)*

## GİRİŞ

Türklərin irsi olaraq hər zaman dəyişməyə, irəlini görməyə, yeniliyə, inkişafa uyğunlaşma xüsusiyyətinə sahib olmaları, onlara əsrlər boyunca getdikləri hər coğrafi iqlimin mədəni quruluşu içində öz varlıqlarını qoruma, yaşatma və yaşadıqları topluluklar içində sahib olduqları böyük dəyərləri qoruyub saxlama xüsusiyyətini qazandırıb.

Məruzə çərçivəsində, Avropada yarım əsrlik bir tarixi dövr ərzində məskunlaşdıqları ölkələrdə yaşadıqları müddətdə artıq 4-cü nəslin əsasının qoyulduğu avropalı türklərin bugünkü siyasi, iqtisadi, ictimai, mədəniyyət, elm və bir çox başqa sahələrdə əldə etdikləri nailiyyətlərin əsasını, arxada qoyduqları yarım əsrlik zaman içində ortaya çıxan mövcud vəziyyəti təhlil etməyə çalışacayıq.

Sovetlərin dağılması ilə dünyada bir çox tarazlıqlar, müvazinətlər pozulmuş və bu pozulan nizam yeni bir dünya quruluşunu ortaya çıxarmışdır. Ancaq bu, yeni inkişaf meyllərinin tam olaraq harada və necə dayanacağı naməlumluğunu hələlik qoruyub saxlamaqdadır. Təbii ki, yeni inkişaf meylləri içində dövlətlər, millətlər, hətta ayrılıqda hər bir insan belə ən layiqli yerini tutmağa çalışır. Şübhəsiz, bu yeni meyllər millətlərin bugünkü və gələcəkdəki vəziyyətini müsbət və ya mənfi istiqamətdə öz təsiri altına alacaqdır. Öz milli-mənəvi dəyərlərinə sadiq qalmaq şərtilə, yeni meyllərə uyğunlaşan və bunu həyata tətbiq edə bilən millətlər ondan müsbət istiqamətdə təsirlənəcək və inkişaf edəcək, hətta söz sahibi ola biləcəklər. Yeni inkişaf meyllərinə uyğunlaşa bilməyən millətlər isə, təbii ki, inkişafdan geri qalmağa və başqa millətlərin təsiri altında varlığını davam etdirməyə məcbur və bəlkə də məhkum olacaqlar.

XXI əsrin yeni dünya quruluşunun yaranmasının müxtəlif əsasları vardır və bu əsasların başında iqtisadi gücün birinci yer tutduğunu desək, həç də yanılmarıq. Əgər iqtisadi gücünüz qarşı gücü üstələyəcək qüvvəyə malikdirsə, siz dünya siyasətində, dünya bazarında, dünya texnikasında, dünya strategiyasında hökm vermə, söz sahibi ola bilmə haqqına maliksiniz. Bu halda sizin mədəniyyətiniz, milli kimliyiniz başqa millətlərə öz təsirini göstərəcək və onların ictimai-siyasi həyatında öz gücünü təzahür etdirəcəkdir.

Məsələn, bu gün ABŞ və iqtisadi gücə malik Qərbi Avropa ölkələri, dünya miqyasında Şərq ölkələri və inkişafda onlardan geridə qalmış Qərb ölkələri üçün bir nümunə təşkil edir. Həmin ölkələrdə, inkişaf edən ölkələrin həyat tərzini özlərinə nümunə götürmə vərdişi xalqın ən üstün məqamlarından başlayaraq, küçədəki hər bir nəfərin həyatına qədər, hər sahədə öz təsirini göstərir - musiqi zövqü, qidalanma mədəniyyəti, həyatı qavrama və yaşam tərzi, təhsil sistemi və təfəkkürə qədər toplumlarda və fərdlərdə bu təsirlərin izlərini bariz şəkildə görə bilərik.

Bu nöqteyi-nəzərdən çıxış etməli olsaq, XXI əsrin yeni dünya meyllərində Türk dünyasının yerinin harada olacağını, bunun üçün hansı taktikanın tətbiq edilməsinin vacibliyini qısaca olaraq təhlil etməyə çalışacağıq.

Mərkəzi ABŞ və Qərbi Avropa olan, son bir əsrin dünya meyllərinin istiqamətini təyin edən sənaye sahələrinin inkişafı, XXI əsrdə yerini texnika və elektronika sənayesinə verib. Sürətlə inkişaf edən yeni dünya, özü ilə birgə başqa çətinlikləri də gətirib. Nədir bu çətinliklər?

Yüksək səviyyədə inkişaf edən dövlətlər, son bir əsrin texniki inkişafının əsasını tamamilə təbii qaynaqlara bağlı olaraq hazırlamış və bu inkişaf mərhələsi bir əsr boyunca eyni xətt üzrə davam etmişdir. Təbii qaynaqların başında neft, təbii qaz və neftdən istehsal olunan digər enerжi maddələri dünyadakı bütün mövcud texniki, siyasi, iqtisadi, hərbi və ictimai tarazlıqları, müvazinətləri tənzimləyən əsas amildir; cibimizdəki telefon, mindiyimiz avtomobil, evimizi isidən qızdırıcılar, oturduğumuz divan, seyr etdiyimiz televizor, bizi minlərlə kilometr məsafələrə bir neçə saat ərzində çatdıran təyyarələr, fəzada həyat axtarmaqçün istifadə olunan vasitələr, ən müasır icad kimi inkişaf edən silahlara qədər hər şey, həmin təbii qaynaqdan, yəni neftdən asılıdır, hətta ona möhtaçdır. Bu sistemin əksini fərz etmək, yəni, neftə bağlı olmayan bir dünya və inkişaf təsəvvür etmək mümkün deyildir. Bunun üçün aparılan tədqiqatlar və ortaya çıxarılan üsul və kəşflər bir şəhərin belə ehtiyacına əvəz olmayacaq qədər bəsit və məhdud nisbətdədir. Buna görə də, əlindəki iqtisadi gücdən istifadə edərək, XXI əsrin yeni dünya meyllərini öz hökmü altında saxlamaq istəyən, başda ABŞ olmaqla, bəzi Qərb dövlətlərinin son 50 ildə dünya üzərindəki hökmranlıqlarını – əsarət, zülm və işğalçılıq siyasətlərini görməmək olarmı?!

XXI əsrin sülh və firavanlıq içində yeni bir məcraya keçməsi üçün, Türk Dünyasının oynayacağı rol, bu nöqtədə öz hökmünü ortaya qoya biləcək səviyyədədir. Lakin Türk Dünyası bu gücü dərk etdiyi təqdirdə, birlik və bərabərlik zəminində bu prosesi sürdürməklə istənilən nəticəni əldə edə bilər. Türk Dünyası bu tarixi fürsəti əldən versə, XXI əsrin müasir inkişaf səviyyəsinə qalxa bilməyəcəkdir. Bunu da qəbul etməliyik ki, millətlərin əlinə tarixi fürsətllər əsrdə bir dəfə ya keçir, ya da keçmir. Həmin tarixi fürsət Türk Dünyasının əlinə yaşadığımız XXI əsrdə keçib.

Türk Dünyası 90-cı illərdən başlayan yeni dünya meyllərində, kifayət qədər yüksək nəticə eldə edə bilməmişdir. Əlbəttə, 15-20 illik müddət dövlətlərin

ömründə gün qədər qısa sayıla bilər. Lakin bu müddət, təbii ki, insan ömrü üçün ciddi bir məna kəsb edir. Buna görə də arzu edilən nəticəni əldə etməyimiz qısa bir zamanda mümkün deyildir. Fəqət, bu müddət içində gözdən yayınan, hətta Türkiyənin də son əlli ildə gözdən yayındırdığı bir vacib amil və güc mövcuddur, hətta danılmazdır ki, bu da «Avropalı Türklər» amilidir. İndi bu amildən bəhs etməyə çalışacağıq.

## Avropalı Türklərin qısa tarixi

İkinci cahan muharibəsinin meydana gətirdiyi təxribatlar və milyonlarla insanların məhvi, "XXI əsrin ikinci yarısından başlayaraq başda Almaniya olmaqla, Qərbi Avropa ölkələrində müşahidə edilən davamlı və sürətli sənaye inkişafı, iqtisadi cəhətdən geri qalmış və sənaye inkişafı dövrünə girə bilməmiş ölkələrdən bu ölkələrə işçi qüvvəsi axınını zəruri etmişdir."[1]

"Türkiyə ilə yanaşı Yuqoslaviya, İspaniya, Yunanıstan, Tunis və İran Avropa ölkələrinə kütləvi şəkildə işçi qüvvəsi göndərdilər."[2]

"Federal Almaniya ilə Türkiyə arasında 31 oktyabr 1961-ci ildə (rotasyon) (geri qayıtma şərti) bir illik müvəqqəti müqavilə əsasında "İşçi qüvvəsi alınma müqaviləsi" imzalandı." (Göksal, 1986, 56).

Bu müqaviləni 1964-cü ildə Avstriya, Hollandiya və Belçika, 1965-ci ildə Fransa, 1967-ci ildə İsveç və 1968-ci ildə də Avstraliya ilə imzalanan müqavilələr təqib etdi (Onulduran və Renselaar, 1975, 28)."[3]

Fəqət həmin müqavilə (rotasyon) (geri qayıtma şərti) sistemi Avropa ölkələrində ciddi iqtisadi çətinliklər yaratdı. Çünki bir illik müvəqqəti müddətə həmin ölkələrə işləməyə gələn Türklər hələ işi qavramadan, dil öyrənmədən, yad ölkəyə tam uyğunlaşa bilmədən geri qayıtmaq məcburiyyətində qaldılar və onların yerinə növbədə gözləyən yeni Türk işçi qüvvələrinin gəlməsi zərurəti yarandı. Avropa ölkələri hər dəfə təzə gələn işçilər üçün hər şeyi başdan başlamağa məcbur olurdular. "1963-cü ildə_Türkiyə və o zamankı adı AET olan (Avropa Ekonomi Topluluğu – indi AB –Avropa Birliyi) arasında imzalanan şəriklik müqaviləsi Almaniyaya Türk işçi qüvvəsi köçünü sürətləndirdi. Almaniyanın istəyi əsasında 1964-cü ildə (rotasyon - geri qayıtma şərti) əsasının aradan götürülməsi (Akkaya 2006, 23) Almaniyaya Türk işçi qüvvəsi köçünü müvəqqətilikdən məskunlaşaraq yaşama istiqamətinə apardı." [4]

---

[1] Dr. TOSUN, Cemal, Din ve Kimlik, Türkiye Diyanet Vakfı Yayınları Ankara, 1993, s. 1

[2] Yrd. Doç. Dr. KOLAÇ, Emine Anadolu Üniversitesi, Türkçe Eğitimi Bölümü; GÜLTEN DAYIOĞLU'NUN YURDUMU ÖZLEDİM ROMANINDA DIŞ GÖÇ SORUNUNUN ÇOCUK BOYUTU

[3] a.g.e.

[4] Yrd. Doç. Dr. KOLAÇ, Emine Anadolu Üniversitesi, Türkçe Eğitimi Bölümü; GÜLTEN DAYIOĞLU'NUN YURDUMU ÖZLEDİM ROMANINDA DIŞ GÖÇ SORUNUNUN ÇOCUK BOYUTU

Avropaya gedən Türklərin çoxu savadı olmayan, ya da Türkiyə Cumhuriyyətinin ilk illərində tədbiq olunan üçillik kənd məktəblərini qurtaran insanlardı.[5]

Onlar nəinki Avropa üzü görməmiş, hətta öz ölkəsində belə məcbur olmadıqca kəndindən, qəsəbəsindən kənara çıxmamış insanlardı. Bu savadsız insanlar müvəqqəti müddət üçün getdikləri Avropada, nəsillər boyu davam edəcək olan bir tarixin əsasını qoyduqlarını o zaman özləri də bilmirdilər.

31 oktyabr 1961-ci ildə Avropaya işçi qüvvəsi kimi gedən Türklərin, aradan keçən 50 il müddətində ortaya çıxan bugünkü vəziyyətinə nəzər salaq:

Almaniyada 2,7 milyon Türk yaşamaqdadır və hal-hazırda bunların 650 mini Alman vətəndaşıdır. [6]

"Timetürk" tərəfindən, **"Türklər Almaniya üçün nəyə görə vacibdir?"** başlıq altında aparılan statistikaya görə, Almaniyadaki Türk sərmayə gücü belədir:

"2007-ci ilin statistikasına görə, Almaniyada 72 min Türk iş adamı, 350 min işçi çalışdırmaqda. Almaniyadaki Türk iş yerlərinin illik sərmayəsi 36 milyard avro, Türk iş adamlarının illik yatırım həcmi 8 milyard avrodur.

Almaniyada 858 min Türk ailəsi dəqiqləşdirilib, ailələrin illik qazancı 17,5 milyard avro, ehtiyac üçün xərçləmələri isə 15 milyard avrodur.

**Həmin statistikanın 2015–ci il üçün nəzərdə tutulan təxminləri isə belədir:**

2015-ci ildə Almaniyadaki Türk iş verənlərin sayı 120 minə, işləyənlərin sayı 720 minə, illik sərmayəsi 66,5 milyard avroya, Türk iş adamlarının illik yatırım həcminin 15,3 milyard avroya qalxması gözlənilir. 2015-ci ildə təxminən Türk ailə sayı 1milyon 35 minə*, ailələrin illik gəlirinin 22 milyar avroya, ehtiyac üçün xərcləmələri isə 18,9 milyard avroya qalxacağı təxmin edilir." [7]

** (1 Türk ailəsinin ortalama 4 nəfər olduğunu nəzərə alsaq, 2015-ci ildə Almaniyadakı Türklərin sayının 4,5 milyona qalxacağını dəyə bilərik. )*

**Statistika cədvəli 1**

| | |
|---|---|
| Almaniyadakı türk iş yerlərinin sayı | 72 min |
| Türk iş yerlərində işləyənlərin sayı | 350 min |
| Türk iş yerlərinin illik sərmayəsi | 36 milyard avro |
| Türk iş yerlərinin illik yatırım sərmayəsi | 8 milyard avro |
| Almaniyadaki türk ailə sayı | 858 min |

[5] Üç sınıflı köy okullarının beş sınıfa çıkarılması, 1939 MEB http://www.meb.gov.tr/stats/ist2001/bolum3s1.htm
[6] Alman İstatistikler Dairesi 2006
[7] http://de.timeturk.com/Warum-Turken-fur-Deutschland-wichtig-sind-2279-haberi.html.
[8] a.g. web sitesi

| | |
|---|---|
| Ailələrin illik gəlirləri | 17,5 milyard avro |
| Ailələrin illik xərcləmələri | 15 milyard avro |
| | |
| Almaniyadakı Türk iş yerlərinin sayı | 120 min |
| Türk iş yerlərində işləyənlərin sayı | 720 min |
| Türk iş yerlərinin illik sərmayəsi | 66,5 milyard avro |
| Türk iş yerlərinin illik yatırım sərmayəsi | 15,3 milyard avro |
| 2015-ci ildə Almaniyadakı Türk ailə sayı | 1 milyon 35 min |
| Türk ailələrin illik gəlirlərinin həcmi | 22 milyard avro |
| Türk ailələrin illik xərcləmələrinin həcmi | 18,9 milyard avro |

**Statistika cədvəli 2**

| | | | |
|---|---|---|---|
| Vəzifəsi | İş yeri | Sayı | Adı |
| Əyalət Məclisi Millət vəkili | Almaniya Federal Əyalət Məclisi | 25 | |
| Federal Məclisi Millət vəkili | Almaniya Federal Məclisi | 5 | Lalə Akgün (SPD), Əkin Dəligöz, (Yəşillər), Hakkı Kəskin, Sevim Dağdələn, Hüsəyin Kənan Aydın, (DL) |
| AP (Avropa Parlamenti) Millət vəkili | Avropa Parlamenti | 3 | Cəm Özdəmir (Yəşillər) Vural Ögər (SPD) Fələknas Uca (DL). |

| | | | | |
|---|---|---|---|---|
| Ölkə | Vəzifəsi | İş yeri | Sayı | İzahat |
| AVSTRİYA | Millət vəkili | Federal Məclis | 1 | |
| | Məclis üzvü | Vyana Bələdiyyəsi | 1 | |
| FRANSA | Millət vəkili | Fransa İslam Konseyi sədri | 1 | |
| | Məclis üzvü | Bələdiyə Məclisi | 52 | |
| HOLLANDİYA | Millət vəkili | Əyalət Məclisi | 16 | |
| | Senator | Senat | 1 | |
| | Millət vəkili | Parlament | 1 | |
| | Millət vəkili | Avropa Parlamenti üzvü | 1 | |
| | Bələdiyyə Məclis üzvü | Bələdiyyə Məclis üzvü | 180 | Çox sayda bələdiyyələrdə sədr müavini vəzifəsini aparan Türk |

[9] http://de.timeturk.com/Warum-Turken-fur-Deutschland-wichtig-sind-2279-haberi.html.

| | | | | |
|---|---|---|---|---|
| | | | | siyasətçilər mövcuddur. |
| BELÇİKA | Millət vəkili | Federal Məclisi | 3 | |
| | Məclis üzvü | Bələdiyyə Məclisi | 77 | |
| İSVEÇRƏ | Millət vəkili | Parlament | 1 | |
| İSVEÇ | Millət vəkili | Parlament | 3 | |
| DANİMARKA | Millət vəkili | Parlament | 1 | |
| YUNANISTAN | Millət vəkili | Parlament | 2 | |
| Almaniya və digər Avropa Dövlətlərindəki Türk əsilli siyasətçilərin cəmi | | | | 351 nəfər |

**Burada vacib bir məqama toxunmaq lazımdır:** Səçkilərdə, ölkəmizdəki partiyaların və onların namizədlərinin öz ana dilimizdə danışan, milli və mənəvi dəyərlərimizi daşıyan, soyumuzdan, kökümüzdən olmağına baxmayaraq, öz əhalimizin razılığını qazanmaqçün seçkillərdə nə qədər böyük mücadilə apardıqlarınaın həmişə şahidi oluruq. 29 Mart 2009-cu ildə Türkiyədə məhəlli seçkilər keçiriləndə də buna şahid olduq. Almaniyada və ya digər Avropa ölkələrində xarici bir millət kimi, nə qədər o ölkənin vətəndaşı olsanız, onun dilində yaxşı danışsanız, sistemə nə qədər uyğunlaşsanız belə, “XARİCİ MİLLƏT!” kimliyinizi üstünüzdən silməniz mümkün olmur. Bu şərtlər altında xarici bir ölkədə siyasətlə məşğul olmanın, millət vəkili seçilib Milli Məclisə üzv olma haqqını qazanmanın, Türk əsilli bir siyasətçi üçün hansı məna kəsb etdiyi və nə kimi çətinliklər hesabına başa gəldiyini dərk ətmək o qədər də anlaşılmaz deyildir.

**Almaniyada həyata keçirilən “İkinci xarici dil - türkcə” təhsili**

“Berlin Təhsil, Axtarış və İnkişaf Senatı” tərəfindən Berlində tətbiq olunan **“İkinci xarici dil - türkcə”** artıq Alman Dövlət məktəblərində təhsil proqramına daxil edilib.

Bu təhsilin tətbiqi orta və lisey səviyyəsindəki məktəblərdə iki mərhələdə həyata keçirilir:

1. “1-ci mərhələdə şagird, İbtidai məktəbin 3-sinfindən başlayaraq tətbiq olunan **“Məcburi xarici dil ingiliscə”** dərsindən sonra, orta 2-ci sinifdə (7-ci sinif) **“İkinci xarici dil - türkcə”** kimi **“Türkcə”-** ni seçə bilər.
2. 2-ci mərhələdə şagird əgər, orta 2-ci sinifdə (7-ci sinif) **“seçmə 2-ci xarici dil”** kimi **“Türkcə”**-ni seçmirsə və əvəzində **“Fransızca, İtalyanca, İspanca, Latınca”** kimi dillərdən birini seçirsə onda, Liseyə keçəndə 9-cu sinifdə yenidən, **“seçmə 3-cü xarici dil”** kimi **“Türkcə”**-ni seçmək hüququna malikdir.
3. Bu tətbiqetmə üsulu uzun müddətə Almaniyadakı türklərin ana dili təhsilini gücləndirəcək, həm də bu sahədə Türk əsilli müəllimlərin

yetişməsinə, XXI əsrdə türkcənin Avropada **"İkinci Xarici Dil"** kimi yayılmasına imkan yaradacaqdır."[10]

4. Məsələn, **"Seçmə İkinci Xarici Dil"** kimi **"Türkcə",** Berlində 3 səmtdə 7 orta məktəb və 1 Lisey olmaqla cəmi 8 məktəbdə tətbiq olunur." [11]
5. **"İki Dilli Berlin Dövlət Avropa Təhsil Məktəbləri"** çərçivəsində tətbiq olunan, **"Əziz Nesin İbtidai Məktəbi"ndə də "İkinci Xarici Dil Türkcə"** təhsili verilməkdədir." [12]

Alman Dövlətinin tətbiq etdiyi **"Seçmə 2-ci və 3-cü Xarici Dil Türkcə"** dərsdən kənarda əlavə, Alman Dövlət məktəblərində həftədə bir gün tətbiq olunan Türkcə təhsil, T.C. Milli Təhsil Nazirliyinin xətti ilə Türkiyədən göndərilən (dəyişməli qanun əsasında) üçillik müddətli müəllimlər tərəfindən aparılmaqdadır. "Ana dili dərsi (Muttersprachliche Unterricht): Türk uşaqlarına, öz ana dillərində və mədəniyyətlərini, mənliklərini unutmamaları üçün, Alman məktəblərində verilən dərsin adıdır. Dərsin tətbiqi əyalətlərə görə, fərqlilik prinsipi əsasında aparılır. Türkcə, Türk tarixi, Türkiyə coğrafyası və Din dərslərinin mövzularından ibarətdir." [13]

**Statistika cədvəli 3**

| 2008 Avropa və Almaniyadakı təhsil və din təhsilinin yekunları | |
|---|---|
| "Türkiyədən xaricə göndərilən müəllim sayı | 1.486 |
| Türkiyədən Almaniyaya göndərilən müəllim sayı | 506 |
| Xarici ölkə universitetlərindəki Türk tələbə sayı | 130.000 |
| Almaniya universitetlərindəki Türk tələbə sayı | 25.000 |
| Xarici ölkələrdəki ibtidai və orta məktəb tələbə sayı | 838.000 |
| Türkiyədən xaricə göndərilən ruhani sayı | 1.017* |
| Türkiyədən Almaniyaya göndərilən ruhani sayı | 532 |
| Xarici ölkələrdəki Türk cəmiyyətləri sayı | 3.900 |
| Almaniyadaki Türk cəmiyyətləri sayı | 2.500 |

[10] Berlin Eğitim, Araştırma ve Geliştirme Senatosu 2009/2010 eğitim yılı "Berlin İçin Eğitim" (Bildung für Berlin) Dergisi, Ocak 2009, s.22-23
[11] a.g.e. s. 37
[12] Berlin Eğitim, Araştırma ve Geliştirme Senatosu 2009/2010 eğitim yılı "Berlin İçin Eğitim" (Bildung für Berlin) Dergisi, Ocak 2009,s. 44
[13] age. s. 33

| | |
|---|---|
| Almaniyadaki məscid cəmiyyətləri sayı | 1.500” [14] |
| “Berlindəki məscid cəmiyyətləri sayı | 77” [15] |
| *T.Ж. DİTİB (Diyanət İşləri Türk İslam Birliyi) cəmiyyətlərinə bağlı olmayan ruhanilər və məscidlər bu rəqəmlərə daxil edilməmişdir) | |

**2002-ci ildə Berlinli Türklərin təhsil səviyyəsi [16]**




**Avropalı Türklərin ictimai informasiya vasitələri; radio, televiziya və mətbuat:**

**İlk radio**

Almaniyada ilk türkcə radio verilişi, 02 Noyabr 1964-cü ildə, Köln şəhərindəki “Qərbi Almaniya Radio-Televiziya Şirkəti (WDR)” ilə bağlanan müqavilə əsasında, gündə yarım saat Türkcə efirə çıxan, Almaniyalı Türklər arasında **"Köln Radiosu"** kimi tanınan ilk türkcə radio verilişidir” [17]

**İlk TV**

Yenə bir başqa Alman Dövlət Radio və Televiziya Şirkəti ZDF ilə TRT arasında “28 Oktyabr 1973-cü ildə bağlanan müqavilə əsasında ayda iki dəfə olmaqla, 45 dəqiqəlik **"Türkiyədən məktub var"** adlı proqram yayınlanmağa başlandı”.[18]

[14] T.C. Dışişleri Bakanlığı Web sitesi http//www.mfa.gov.tr/yurtdisinda-yasayan-turkler_.tr.mfa
[15] DMK=Deutschsprachiger Muslimkreis e.V. Berlin, http//www.dmk-berlin.de/toplinks/moscheen.htm
[16] http://commons.wikimedia.org/wiki/File:Berlinli_Turkler_egitim.png
[17]http://www.wdr.de/wdrprint/archiv/2004/11/thema.html ayrıca bkz. http://tr.wikipedia.org/wiki/K%C3%B6ln_Radyosu
[18] http://www.trt.net.tr/Kurumsal/Tarihce.aspx?yil=1973

Bu gün Almaniyadakı hər üç türkdən ikisinin əvində «Türksat» peyk antennası qoşulub və Türkiyədən yayınlanan 300-dən çox türkcə TV və radio kanallarını müşahidə etmək imkanına malikdirlər.”[19]

Türklərin ən sıx yaşadıqları Berlində və digər böyük şəhərlərdə Türklər tərəfindən yaranan radio və televiziyalar artıq 24 saat fasiləsiz yayın fəaliyyəti göstərməkdədir.

Məsələn, “İyun 1999-cu ildə Berlində yaranan «Metropol FM», «Ludwigshafen», «Baden-Württemberg», «Stuttgart», «Ulm» və «Karlsruhe» vilayətlərində 24 saat fasiləsiz yayın fəaliyyəti göstərən ilk türkcə radio olub.”[20]

1985-ci ildə Berlində yaranan, 23 Mart 2005-ci ildə peyk yayınına keçən «TD1» televiziyası, Avropada ilk və ən uzun müddətli yayın fəaliyyəti aparan özəl Türk Televiziyası kimi tarixə düşüb.

Yenə Avropalı Türklərin yaratdığı, “2005-ci ildə Almaniyanın «Duisburg» vilayətində yayın fəaliyyətinə başlayan «Kanal Avropa» Televiziyası da 24 saat fasiləsiz «Avropalı Türklərə» proqramlar yayınlayır.“ [21]

**İlk qəzet**

«3 fevral 1969-cu ildə Türkiyədə hazırlanıb, Münhendə çap olunan ilk Türk mətbu orqanı «Axşam» qəzeti;

17 aprel 1969-cu ildən başlayaraq Münhendə nəşrə başlayan «Hürriyyət» qəzeti;

«Tərcüman» qəzeti, 13 yanvar 1970-ci il;

«Milliyyət» qəzeti, 18 avqust 1972-ci il, Frankfurt;

15 sentyabr 1972-ci ildən isə «Son Havadis» qəzeti nəşrə başlayıb.” [22]

Bu gün Türkiyə mərkəzli qəzetlərlə yanaşı, Avropada nəşr olunan çoxlu sayda türkdilli gündəlik, həftəlik, aylıq, illik qəzet və dərgilər var. Bu qəzet və dərgilərin sayı təxminən 2700-ə çatır və bunları bütün Türk iş yerlərində, marketlərdə, restoranlarda, bərbərxanalarda, xəstəxanalarda və s. yerlərdə tapmaq mümkündür. Ümumiyyətlə, məhəlli olan, bir, yaxud bir neçə şəhəri əhatə edən bu qəzet və dərgilərin böyük əksəriyyəti ödənişsiz olaraq, yəni pulsuz paylanır. (GK/BA)”[23]

---

[19] KÖKSAL, Gürsel, Avrupa Türk Gazeteciler Birliği (ATGB) BİA Haber Merkezi – Frankfurt Avrupada Türkçe Basın ve Türkçenin Geleceği 11.12. 2004

[20] http://www.metropolfm.de/impressum.html

[21] http://www.kanalavrupa.tv/index.php?categoryid=8

[22] Doç. Dr. TOKGÖZ, Oya, TÜRK GAZETELERİNİN YURTDIŞI BASKILARI: NEDENLERİ ROLÜ VE ÖNEMİ

[23] KÖKSAL, Gürsel, Avrupa Türk Gazeteciler Birliği (ATGB) BİA Haber Merkezi – Frankfurt Avrupada Türkçe Basın ve Türkçenin Geleceği 11.12. 2004

## Almaniyada mədəni inkişaf

«Hitit Verlag - Hitit Nəşriyyat» Almaniyalı Türk yazıçılar siyahısnda 147 yazıçının adını qeyd edib. Sonrakı illərdə Almaniyaya gəlib yerləşən Türkiyəli yazıçılar da həmin siyahıya daxil edilib.»[24] Həmin siyahı, istəyə bağlı olduğundan və çox sayda yazıçılar müraciət etmədiyindən, onların adları siyahıda yoxdur.

## Almaniyada İslami Quruluşlar

İlk dəfə, istifadəyə yararsız olan iki köhnə qatar vaqonunu kirayəyə götürüb məscidə çevirəndən sonra ilk Ramazan Bayramı namazı qılan «Anadolu kəndliləri», o zamanlar qoyduqları bu əsasın əlli ildən sonra Avropanı bürüyən bir qurşağa çevriləcəyini bəlkə xəyallarına belə gətirməzdilər.

«1964-cü ildə 8 məscid açılıb. Alman Dövlət Dəmir Yolları (Deutsche Bundesbahn) Hannover vağzalındakı istifadəyə yararsız olan iki köhnə qatar vaqonunu məscid halına gətirib.”[25]

“Türklərin özləri üçün məscid açma fəaliyyətləri 1967-ci ildən başlayır. Bu tarixdə «Braunschwnig» şəhərində «Türk-İslam Cəmiyyəti» yaranıb və ilk Türk məscidi açılıb. Bunun arxasınca 1973-cü ildə «Köln» şəhərində açılan «İslam Kültür Mərkəzi» və məscidi yaranır.”[26]

«Türkiyə Araşdırmaları Mərkəzi»nin statistik məlumatına görə, 2004-cü ildən başlayaraq, 15 ölkədən ibarət olduğu əsas sayılan Avropa Birliyi ölkələrində yaşayan müsəlmanların sayı 13,2 milyondur. Müsəlmanlar, Avropa Birliyi ölkələrinin ümumi əhalisinin 3,5%-ni təşkil edir. Bunların böyük hissəsi əvvəlki illərdə bu ölkələrə köç etmiş olan müsəlmanların övladları və ya nəvələridir.

Avropa Birliyi ölkələri arasında müsəlmanların sayına görə, birinci yerdə 5 milyon ilə Fransa, ikinci yerdə 3,4 milyon ilə Almaniya və üçüncü yerdə 1,6 milyon ilə Böyük Britaniya gəlir. Əhali arasındakı müsəlman sayına görə, sonrakı yerləri Hollandiya və İtaliyatutur.” [27]

---

[24] http://tr.wikipedia.org/wiki/Almanyal%C4%B1_T%C3%BCrk_yazarlar_listesi
[25] Dr. TOSUN, Cemal, Din ve Kimlik, Türkiye Diyanet Vakfı Yayınları Ankara, 1993, s. 23
[26] a.g.e. s. 23
[27] Prof. Dr. ŞEN, Faruk yönetimindeki Türkiye Araştırmalar Merkezi'nin (TAM) "Euro İslam" araştırması, 1 Kasım 2004

**Summary**

# INFLUENCE OF TURKS SETTLED IN EUROPE ON THE DEVELOPMENT OF ECONOMIC, POLITICAL AND CULTURAL RELATIONS OF THE TURKIC WORLD IN THE INTERNATIONAL SCENE IN XXI CENTURY (EXAMPLE OF GERMANY)

***Abdulkadir İNALTAKİN***
*(Germany Mugam Center, Germany)*

Within a period of half a century Germany was populated by Turks in number exceeding 2,5 million and 650 thousand of them are ranked as citizens of Germany.

According to the statistics for 2007, 350 thousand Turks are employed in 72 thousand job places. It is expected that in 2015 the number of job places employed by Turks will reach 120 thousand and the number of employees will be increased two times. The annual investment in the Turk job places has reached 36 billion Euros. This figure would reach 66, 5 billion in 2015.

During the first 25 years of the XXI century there will be a large opening for Turks in Europe and in this new period the Turks from Europe will play an important part in opening of doors of the Turkish origin states to Europe, even the USA and Austria.

More than five million Turks populate and reside in Western Europe, USA and Australia. The Turks, besides close participation in the political, cultural and economic fields of the countries populated by them, their existence in these countries are seriously perceived.

Although the economic power of the European Turks is restricted now with the European scale, their enormous role to be played all over the world is unquestionable.

Therefore, the Turkish-speaking states have to start their contacts with the European Turks straight off and in due course they have to improve these relations. Since the decisive and guiding role of the European Turks is indisputable in the integration of the Turkic states into Europe.

The goal of the paper is to determine the importance of influences to be exerted in the XXI century by the European Turks on the political, cultural and economic fields as regards the attribution of the new world structure and rules and the necessary steps to be made by the Turkic states in this direction and proposals to be pushed into the foreground.

In witness thereof we would like to present additional photo-slides related to the European Turks.

**Keywords**: European Turks, Turks of Western Europe, Turkish investment in Germany, political force of Turks of Germany, politicians of Turkic origin.